# Dövlət sirri haqqında

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun Azərbaycan Respublikasının təhlükəsizliyini təmin etmək məqsədilə məlumatların dövlət sirrinə aid edilməsi, mühafizəsi və istifadə edilməsi, onların məxfiləşdirilməsi və ya məxfiliyinin açılması ilə əlaqədar yaranan münasibətləri tənzimləyir.

I fəsil

## ÜMUMİ MÜDDƏALAR

M a d d ə 1. **Əsas anlayışlar**

1.0. Bu Qanunda aşağıdakı əsas anlayışlardan istifadə olunur:
1.0.1. **dövlət sirri** - dövlətin hərbi, xarici-siyasi, iqtisadi, kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyəti ilə bağlı olub, dövlət tərəfindən mühafizə edilən və yayılması Azərbaycan Respublikasının təhlükəsizliyinə ziyan vura bilən məlumatlardır;
1.0.2. **dövlət sirri təşkil edən məlumatların daşıyıcıları** - dövlət sirri təşkil edən məlumatların rəmzlər, obrazlar, siqnallar, texniki qərarlar və proseslər şəklində əks olunduğu maddi obyektlər, o cümlədən fiziki sahələrdir;
1.0.3. **dövlət sirrinin mühafizəsi sistemi** - dövlət sirrini mühafizə orqanlarının, dövlət sirri təşkil edən məlumatların və həmin məlumatların daşıyıcılarının mühafizəsi üçün bu orqanların istifadə etdikləri vasitə və metodların, habelə bu məqsədlə həyata keçirilən tədbirlərin məcmusudur;
1.0.4. **dövlət sirri ilə işləməyə buraxılma** - vətəndaşların dövlət sirri təşkil edən məlumatlarla tanış olmağa, müəssisə, idarə və təşkilatların isə belə məlumatlardan istifadə etməklə işlərin icrasına buraxılması hüququnun rəsmiləşdirilməsi qaydasıdır;
1.0.5. **dövlət sirri təşkil edən məlumatlarla tanış olmağa buraxılma** – səlahiyyətli vəzifəli şəxsin icazəsi ilə konkret şəxsin dövlət sirri təşkil edən məlumatlarla tanış olması qaydasıdır;
1.0.6. **məxfilik qrifi** - məlumat daşıyıcısının özündə və ya ona qoşulan sənədlərdə qoyulan, daşıyıcısı olduğu məlumatın məxfilik dərəcəsini göstərən rekvizitlərdir;
1.0.7. **informasiyam mühafizə vasitələri** - dövlət sirri təşkil edən məlumatların mühafizəsi üçün nəzərdə tutulan texniki, kriptoqrafik, proqramlı və başqa vasitələr, onların əks olunduğu vasitələr, habelə məlumatın mühafizəsinin səmərəliliyinə nəzarət vasitələridir;
1.0.8. **dövlət sirri təşkil edən məlumatların siyahısı** - müvafiqliyinə görə məlumatların qanunvericiliklə müəyyən olunmuş əsaslarla və qaydada dövlət sirrinə aid edildiyi və məxfiləşdirildiyi məlumat qruplarının məcmusudur.

M a d d ə 2. **Dövlət sirri haqqında Azərbaycan Respublikasının qanunvericiliyi**

Dövlət sirri haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, bu Qanundan və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarından ibarətdir.

M a d d ə 3. **Qanunun təsir dairəsi**

3.1. Bu Qanunun müddəaları Azərbaycan Respublikasının ərazisində və onun hüdudlarından kənarda Azərbaycan Respublikasının dövlət hakimiyyəti və yerli özünüidarə orqanları, təşkilati-hüquqi formasından və mülkiyyət növündən asılı olmayaraq bütün müəssisə, idarə və təşkilatları, dövlət sirri haqqında Azərbaycan Respublikası qanunvericiliyinin tələblərini yerinə yetirmək öhdəliyi götürmüş və ya statusuna görə buna borclu olan Azərbaycan Respublikasının vəzifəli şəxsləri və vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən hökmən icra edilməlidir.
3.2. Azərbaycan Respublikasının beynəlxalq müqavilələrində başqa hal nəzərdə tutulmadıqda, digər dövlətlər tərəfindən Azərbaycan Respublikasına verilmiş dövlət sirri təşkil edən məlumatlar bu Qanuna müvafiq mühafizə edilir.

M a d d ə 4. **Dövlət hakimiyyəti orqanlarının və vəzifəli şəxslərin məlumatların dövlət sirrinə aid edilməsi və mühafizəsi sahəsində səlahiyyətləri**

4.1. Azərbaycan Respublikası Milli Məclisinin məlumatların dövlət sirrinə aid edilməsi və mühafizəsi sahəsində vəzifələri aşağıdakılardır:
4.1.1. dövlət sirrinin mühafizəsi sahəsində dövlət proqramlarının həyata keçirilməsi üzrə dövlət büdcəsindən yönəldilən vəsaitə baxır;
4.1.2. dövlət sirrinin mühafizəsi üzrə Milli Məclis Aparatının vəzifəli şəxslərinin səlahiyyətlərini müəyyən edir.
4.2. Müvafiq icra hakimiyyəti orqanının məlumatların dövlət sirrinə aid edilməsi və mühafizəsi sahəsində səlahiyyətləri aşağıdakılardır:
4.2.1. dövlət sirrinin mühafizəsi sahəsində dövlət proqramlarmı təsdiq edir;
4.2.2. dövlət sirrinin mühafizəsi üzrə müvafiq icra hakimiyyəti orqanının tərkibini, strukturunu və əsasnaməsini təsdiq edir;
4.2.3. dövlət sirrinə aid edilən məlumatların siyahısını təsdiq edir;
4.2.4. dövlət sirri təşkil edən məlumatların birgə istifadəsi və mühafizəsi haqqında Azərbaycan Respublikasının beynəlxalq müqavilələrini bağlayır;
4.2.5. müvafiq icra hakimiyyəti orqanı aparatının vəzifəli şəxslərinin dövlət sirrinin mühafizəsi üzrə səlahiyyətlərini müəyyən edir;
4.2.6. öz səlahiyyətləri daxilində məlumatların dövlət sirrinə aid edilməsi, onların məxfiləşdirilməsi və ya məxfiliyinin açılması və mühafizəsi ilə əlaqədar yaranmış digər məsələləri həll edir.
4.3. Müvafiq icra hakimiyyəti orqanının məlumatların dövlət sirrinə aid edilməsi və mühafizəsi sahəsində səlahiyyətləri aşağıdakılardır:
4.3.1. bu Qanunun icrasını təşkil edir;
4.3.2. dövlət sirrinin mühafizəsi sahəsində dövlət proqramlarının işlənib hazırlanmasını və yerinə yetirilməsini təşkil edir;

4.3.3. beynəlxalq müqavilələrin bağlanması haqqında müvafiq təkliflər verir, dövlət sirri təşkil edən məlumatların birgə istifadəsi və mühafizəsi haqqında Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin yerinə yetirilməsi üzrə tədbirlər görür, dövlət sirri təşkil edən məlumatların digər dövlətlərə və beynəlxalq təşkilatlara verilməsinin mümkünlüyü barədə qərar qəbul edir; [1]

4.3.4. öz səlahiyyətləri daxilində məlumatların dövlət sirrinə aid edilməsi, onların məxfiləşdirilməsi və ya məxfiliyinin açılması və mühafizəsi ilə əlaqədar yaranmış digər məsələləri həll edir. [2]

4.4. Dövlət sirrini mühafizə orqanları ilə qarşılıqlı fəaliyyətdə müvafiq icra hakimiyyəti orqanlarının məlumatların dövlət sirrinə aid edilməsi və mühafizəsi sahəsində səlahiyyətləri aşağıdakılardır:

4.4.1. digər dövlət hakimiyyəti və yerli özünüidarə orqanları, müəssisə, idarə və təşkilatlar tərəfindən onlara verilmiş dövlət sirri təşkil edən məlumatların, həmçinin onlar tərəfindən məxfiləşdirilmiş məlumatların mühafizəsini təmin edirlər;

4.4.2. onların tabeliyində olan müəssisə, idarə və təşkilatlarda dövlət sirrinin mühafizəsini Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə müvafiq təmin edirlər;

4.4.3. dövlət sirri ilə işləməyə buraxılan vətəndaşlar barədə öz səlahiyyətləri daxilində yoxlama tədbirlərinin keçirilməsini təmin edirlər;

4.4.4. dövlət sirri təşkil edən məlumatlarla tanış olmağa buraxılan və ya buraxılmış şəxslərin hüquqlarının məhdudlaşdırılması üzrə qanunvericiliklə nəzərdə tutulmuş tədbirləri həyata keçirirlər; [3]

4.4.5. dövlət sirrinin mühafizəsi sisteminin təkmilləşdirilməsinə dair müvafiq dövlət hakimiyyəti orqanlarına təkliflər verirlər.

4.5. Məhkəmə hakimiyyəti orqanlarının məlumatların dövlət sirrinə aid edilməsi və mühafizəsi sahəsində səlahiyyətləri aşağıdakılardır:

4.5.1. dövlət sirri haqqında Azərbaycan Respublikası qanunvericiliyinin pozulması üzrə işlərə baxırlar;

4.5.2. göstərilən işlərə baxılması prosesində dövlət sirrinin mühafizəsini təmin edirlər;

4.5.3. məhkəmə hakimiyyəti orqanlarında vəzifəli şəxslərin dövlət sirrinin mühafizəsi üzrə səlahiyyətlərini müəyyən edirlər.

M a d d ə 5. **Dövlət sirri təşkil edən məlumatların siyahısı**

5.1. Hərbi sahədə aşağıdakı məlumatlar dövlət sirrini təşkil edir:

5.1.1. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin, başqa silahlı birləşmələrinin, qanunvericiliklə nəzərdə tutulmuş digər qoşunlarının strateji, operativ və səfərbərlik üzrə yerləşdirilməsinə dair əməliyyatların hazırlanması və keçirilməsi üzrə strateji və əməliyyat planlarının, döyüşü idarəetməyə dair sənədlərinin məzmunu, onların döyüş və səfərbərlik hazırlığı, səfərbərlik ehtiyatlarının yaradılması və istifadəsi haqqında;

5.1.2. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış digər silahlı birləşmələrinin quruculuq planları, silahların və hərbi texnikanın inkişafının istiqamətləri, silah və hərbi texnika nümunələrinin yaradılması və modernləşdirilməsi üzrə məqsədli proqramların, elmi tədqiqat və təcrübi-konstruktor işlərinin məzmunu və yerinə yetirilməsinin nəticələri haqqında;

5.1.3. silah və hərbi texnika nümunələrinin taktiki-texniki xarakteristikaları və döyüşdə tətbiqi imkanları, hərbi təyinatlı yeni növ maddələrin xüsusiyyətləri, resepturaları və ya texnologiyaları haqqında;

5.1.4. milli təhlükəsizlik və müdafiə mülahizələrinə görə xüsusi əhəmiyyət kəsb edən obyektlərin dislokasiyası, təyinatı, hazırlıq və müdafiə olunma dərəcəsi, tikintisi və istismarı, habelə bu obyektlər üçün torpaq, yer təki və akvatoriyalar ayrılması haqqında;

5.1.5. qoşunların dislokasiyası, həqiqi adları, təşkilati strukturu, şəxsi heyətinin sayı və onların döyüş təminatı haqqında, həmçinin hərbi-siyasi və ya əməliyyat şəraiti haqqında;

5.1.6. Azərbaycan Respublikası ərazisinin müdafiə və mühüm iqtisadi əhəmiyyətli geodeziya məntəqələrinin və coğrafi obyektlərinin koordinatları haqqında.

5.2. İqtisadi sahədə aşağıdakı məlumatlar dövlət sirrini təşkil edir:

5.2.1. Azərbaycan Respublikasının və onun ayrı-ayrı bölgələrinin mümkün hərbi əməliyyatlara hazırlıq planlarının məzmunu, silah və hərbi texnikanın istehsalı və təmiri üzrə sənayenin səfərbərlik gücü, hərbi sahədə istifadə edilən xammal və materialların strateji növlərinin göndərilməsi həcmi, ehtiyatları, həmçinin dövlət *və səfərbərlik* ehtiyatlarının yerləşdirilməsi, faktik həcmi və istifadəsi haqqında; [4]

5.2.2. Azərbaycan Respublikasının müdafiə qabiliyyətinin və təhlükəsizliyinin təmin olunması məqsədilə onun infrastrukturundan istifadə olunması haqqında;

5.2.3. mülki müdafiə qüvvələri və vasitələri, inzibati idarəetmə obyektlərinin dislokasiyası, təyinatı və müdafiə olunma dərəcəsi, əhalinin təhlükəsizliyinin təmin olunma dərəcəsi, dövlətin təhlükəsizliyinin təmin olunması üçün nəzərdə tutulan nəqliyyat və rabitənin fəaliyyəti haqqında;

5.2.4. dövlət müdafiə sifarişlərinin həcmləri, planları (tapşırıqları), silah, hərbi texnika və digər hərbi məhsulların buraxılması və göndərilməsi (pul və ya natura ifadəsində), onların buraxılışı üzrə mövcud güc və bu gücün artırılması haqqında, göstərilən silah, hərbi texnika və digər hərbi məhsulları işləyib hazırlayan və ya istehsal edən müəssisələr, onların kooperasiya üzrə əlaqələri haqqında;

5.2.5. dövlətin təhlükəsizliyinə təsir edən mühüm müdafiə və ya iqtisadi əhəmiyyəti olan elmi və texniki nailiyyətlər, elmi tədqiqat, təcrübi-konstruktor, layihə işləri və texnologiyaları haqqında;

5.2.6. siyahısı qanunvericiliklə müəyyənləşdirilən strateji növlü faydalı qazıntıların ehtiyatlarının, istehsalının, idxalı və ixracının, satışının həcmi, dövlət ehtiyatlan haqqında, pul əskinaslarının, qiymətli kağızların hazırlanması, saxtalaşdırmadan qorunması, həmçinin dövlətin maliyyə fəaliyyətinin digər xüsusi tədbirləri haqqında.

5.3. Xarici siyasət sahəsində aşağıdakı məlumatlar dövlət sirrini təşkil edir:

5.3.1. Azərbaycan Respublikasının xarici-siyasi və xarici-iqtisadi fəaliyyəti haqqında, əgər onların vaxtından əvvəl açıqlanması dövlətin təhlükəsizliyinə ziyan vura bilərsə;

5.3.2. Azərbaycan Respublikasının digər dövlətlərlə hərbi, elmi-texniki və başqa sahələrdə əməkdaşlığı haqqında, əgər onların vaxtından əvvəl açıqlanması tərəflərdən heç olmasa biri üçün diplomatik fəaliyyətinin həyata keçirilməsində çətinlik yaranmasına səbəb ola bilərsə.

5.4. Kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyəti sahəsində məlumatlar:

5.4.1. kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyətinin qüvvə və vasitələri, mənbələri, metodları, planları və

nəticələri haqqında, habelə bu fəaliyyətin maliyyələşdirilməsinin göstəriciləri haqqında, əgər bu göstəricilər sadalanan məlumatları açıqlayırsa;

5.4.2. kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanlarla konfidensial əsaslarla əməkdaşlıq edən və əməkdaşlıq etmiş şəxslər haqqında;

5.4.3. dövlət mühafizəsi obyektlərinin təhlükəsizliyinin təmin olunmasının təşkili, qüvvə və vasitələri, metodları haqqında, habelə bu fəaliyyətin maliyyələşdirilməsinin göstəriciləri haqqında, əgər bu göstəricilər sadalanan məlumatlan açıqlayırsa;

5.4.4. şifrlənmiş, o cümlədən kodlaşdırılmış və məxfiləşdirilmiş rabitə sistemləri haqqında, şifrlər, şifrlərin işlənməsi və hazırlanması, onlarla təminat, şifrləmə və xüsusi mühafizə vasitələri haqqında, xüsusi təyinatlı informasiya-analitik sistemləri haqqında;

5.4.5. məxfi məlumatların mühafizəsi metodları və vasitələri haqqında;

5.4.6. dövlət sirrinin mühafizəsinin təşkili və faktiki vəziyyəti haqqında;

5.4.7. Azərbaycan Respublikasının dövlət sərhədinin mühafizəsi haqqında;

5.4.8. Azərbaycan Respublikasında dövlətin müdafiəsinin, təhlükəsizliyinin və hüquq mühafizə fəaliyyətinin təmin olunması ilə əlaqədar dövlət büdcəsinin xərcləri haqqında;

5.4.9. dövlətin təhlükəsizliyinin təmin olunması məqsədilə keçirilən tədbirləri açıqlayan kadr hazırlığı haqqında.

II fəsil

## MƏLUMATLARIN DÖVLƏT SİRRİNƏ AİD EDİLMƏSİ, ONLARIN MƏXFİLƏŞDİRİLMƏSİ VƏ MƏXFİLİYİNİN AÇILMASI

M a d d ə 6. **Məlumatların dövlət sirrinə aid edilməsinin və məxfiləşdirilməsinin prinsipləri**

6.1. Məlumatların dövlət sirrinə aid edilməsi və onların məxfiləşdirilməsi - dövlət sirri təşkil edən məlumatların yayılmasına və onların daşıyıcıları ilə tanış olmağa buraxılmağa bu Qanunla nəzərdə tutulmuş qaydada məhdudiyyətlərin qoyulmasıdır.

6.2. Məlumatların dövlət sirrinə aid edilməsi və onların məxfiləşdirilməsi qanunilik, əsaslılıq və vaxtında həyata keçirilməsi prinsipləri ilə tənzimlənir.

6.3. Məlumatların dövlət sirrinə aid edilməsinin və onların məxfiləşdirilməsinin qanuniliyi - dövlət sirrinə aid edilən və məxfiləşdirilən məlumatların bu Qanunun 5-ci və 7-ci maddələrinin müddəalarına və Azərbaycan Respublikasının dövlət sirri haqqında qanunvericiliyinə müvafiqliyidir.

6.4. Məlumatların dövlət sirrinə aid edilməsinin və onların məxfiləşdirilməsinin əsaslılığı - dövlətin, cəmiyyətin və vətəndaşların həyati maraqlarının balansı nəzərə alınmaqla, konkret məlumatın dövlət sirrinə aid edilməsinin və məxfiləşdirilməsinin mümkün iqtisadi, siyasi, hərbi və digər nəticələrinin ekspertlər tərəfindən qiymətləndirilməsi yolu ilə məqsədəuyğunluğunun müəyyənləşdirilməsidir.

6.5. Məlumatların vaxtında dövlət sirrinə aid edilməsi və onların məxfiləşdirilməsi - bu məlumatların yayılmasına və onların daşıyıcıları ilə tanış olmağa buraxılmağa qabaqcadan və ya onların əldə edildiyi (hazırlandığı) andan məhdudiyyət qoyulmasıdır.

6.6. Məlumatların dövlət sirrinə aid edilməsi qaydalarını müvafiq icra hakimiyyəti orqanın müəyyən edir.

M a d d ə 7. **Dövlət sirrinə aid edilməyən və məxfiləşdirilməyən məlumatlar**

7.0. Aşağıdakı məlumatlar dövlət sirrinə aid edilmir və məxfiləşdirilmir:

7.0.1. insanların həyat və sağlamlığı üçün təhlükə törədən fövqəladə hadisələr və qəzalar, onların nəticələri, habelə təbii fəlakətlər, onların rəsmi proqnozları və nəticələri haqqında;

7.0.2. ekologiya, səhiyyə, sanitariya, demoqrafiya, təhsil, mədəniyyət və kənd təsərrüfatının, habelə cinayətkarlığın vəziyyəti haqqında;

7.0.3. dövlətin vətəndaşlara, vəzifəli şəxslərə, müəssisə, idarə və təşkilatlara verdiyi imtiyazlar, güzəştlər və kompensasiyalar haqqında;

7.0.4. insan və vətəndaş hüquqlarının və azadlıqlarının pozulması faktları haqqında;

7.0.5. Azərbaycan Respublikasının ali vəzifəli şəxslərinin səhhəti haqqında;

7.0.6. dövlət hakimiyyəti orqanları və onların vəzifəli şəxsləri tərəfindən qanunvericiliyin pozulması faktları haqqında.

M a d d ə 8. **Məlumatların məxfilik dərəcələri və b u məlumatların daşıyıcılarının məxfilik qrifləri**

8.1. Dövlət sirri təşkil edən məlumatların məxfilik dərəcəsi, bu məlumatların yayılması nəticəsində Azərbaycan Respublikasının təhlükəsizliyinə vurula bilən ziyanın ağırlıq dərəcəsinə uyğun gəlməlidir.

8.2. Dövlət sirri təşkil edən məlumatların üç məxfilik dərəcəsi və müvafiq olaraq, bu məlumatların daşıyıcıları üçün üç məxfilik qrifi müəyyənləşdirilir: "xüsusi əhəmiyyətli", "tam məxfi" və "məxfi".

M a d d ə 9. **Məlumatların dövlət sirrinə aid edilməsi qaydası**

9.1. Məlumatlar onların sahə, idarə və ya məqsədli proqram mənsubiyyətinə, habelə bu Qanuna uyğun olaraq dövlət sirrinə aid edilir.

9.2. Məlumatların məxfiləşdirilməsi sahəsində vahid dövlət siyasətini həyata keçirmək üçün müvafiq icra hakimiyyəti orqanı bu Qanunla müəyyən olunmuş dövlət sirri təşkil edən məlumatlar siyahısına və məlumatların dövlət sirrinə aid edilməsi və məxfiləşdirilməsi prinsipinə uyğun olaraq, habelə dövlət hakimiyyəti orqanlarının təklifləri nəzərə alınmaqla, dövlət sirrinə aid edilən məlumatların siyahısını tərtib edir. Siyahıda həmin məlumatlar barəsində sərəncam vermək səlahiyyətinə malik olan dövlət hakimiyyəti orqanları göstərilir. Siyahı onu təsdiq edən müvafiq icra hakimiyyəti orqanının qərarı ilə dərc edilir və zəruri hallarda siyahıya yenidən baxılır.

9.3. Dövlət sirrinə aid edilən məlumatlar barəsində sərəncam vermək səlahiyyətinə malik olan dövlət hakimiyyəti orqanları dövlət sirrinə aid edilən məlumatlar siyahısına uyğun olaraq məxfiləşdirilməli məlumatların geniş siyahılarını tərtib edir və bu siyahılara daxil edilmiş məlumatların məxfilik dərəcələrini müəyyənləşdirir.

9.4. Silah və hərbi texnika nümunələrinin hazırlanmasına və modernləşdirilməsinə dair məqsədli proqramlar, elmi tədqiqat və təcrübi-konstruktor işləri çərçivəsində işlərin sifarişçilərinin qərarı ilə məxfiləşdirilməli məlumatların ayrıca siyahıları tərtib edilə bilər. Bu siyahıları müvafiq dövlət hakimiyyəti orqanlarının rəhbərləri təsdiq edirlər. Siyahıların məxfiləşdirilməsinin məqsədəuyğunluğu onların məzmunu ilə müəyyənləşdirilir.

M a d d ə 10. **Məlumatların və onların daşıyıcılarının məxfiləşdirilməsi qaydası**

10.1. Dövlət hakimiyyəti orqanlarının, müəssisə, idarə və təşkilatların idarəetmə, istehsal, elmi və başqa fəaliyyəti nəticəsində əldə edilmiş (hazırlanmış) məlumatların və onların daşıyıcılarının məxfiləşdirilməsi üçün əsas onların həmin orqan, müəssisə, idarə və ya təşkilatda qüvvədə olan məxfiləşdirilməli məlumatlar siyahısına *və ya dövlət sirrinə aid edilən məlumatların siyahısına* uyğun gəlməsidir. Bu məlumatlar məxfiləşdirilərkən onların daşıyıcılarına müvafiq məxfilik qrifi verilir.[5]

10.2. Əldə edilmiş (hazırlanmış) məlumatların qüvvədə olan siyahıdakı məlumatlarla eyniləşdirilməsi mümkün olmadıqda dövlət hakimiyyəti orqanlarının, müəssisə, idarə və təşkilatların vəzifəli şəxsləri əldə edilmiş (hazırlanmış) məlumatların ehtimal olunan məxfilik dərəcəsinə müvafiq surətdə ilkin qaydada məxfiləşdirilməsini təmin etməli və siyahını təsdiq etmiş dövlət hakimiyyəti orqanına həmin siyahıya əlavə (dəyişiklik) etmək haqqında bir ay
ərzində təklif göndərməlidir.

10.3. Qüvvədə olan siyahını təsdiq etmiş dövlət hakimiyyəti orqanı daxil olmuş təkliflərin üç ay ərzində ekspertizasını təşkil etməli və qüvvədə olan siyahıya əlavə (dəyişiklik) edilməsi və ya məlumatlara ilkin qaydada verilmiş məxfiliyin götürülməsi barədə qərar qəbul etməlidir.

10.4. *Məlumatın daşıyıcısına məxfilik qrifinin verilməsi ilə əlaqədar bu Qanunun 10.1-ci və 10.2-ci maddələrində nəzərdə tutulmuş tələblərə riayət edilməsinə görə onu hazırlamış struktur bölmənin rəhbəri məsuldur.*[6]

M a d d ə 11. **Məlumatın məxfiləşdirilməsi ilə əlaqədar olaraq Azərbaycan Respublikası vətəndaşlarının, müəssisə, idarə və təşkilatlarının həmin məlumat üzərində mülkiyyət hüququnun məhdudlaşdırılması**

11.1. Vətəndaşların, müəssisə, idarə və təşkilatların (bundan sonra "məlumat mülkiyyətçisi") mülkiyyətində olan məlumat dövlət sirrinə aid edilən məlumatlar siyahısında sadalanmış olduqda bu Qanunun 9-cu maddəsində nəzərdə tutulmuş qaydada dövlət sirrinə aid edilən məlumatlar barəsində sərəncam vermək səlahiyyətinə malik olan dövlət hakimiyyəti orqanı həmin məlumatın məxfiləşdirilməsi haqqında qərar qəbul edə bilər. Göstərilən məlumat onun mülkiyyətçisinin və ya müvafiq dövlət hakimiyyəti orqanlarının təqdimatı əsasında məxfiləşdirilir.

11.2. Məlumatın məxfiləşdirilməsi ilə əlaqədar onun mülkiyyətçisinə dəyən ziyanın əvəzi məlumatın sərəncamına keçdiyi dövlət hakimiyyəti orqanı ilə məlumat mülkiyyətçisi arasında bağlanan müqavilədə müəyyənləşdirilmiş məbləğdə dövlət tərəfindən ödənilir. Müqavilədə məlumat mülkiyyətçisinin onu yaymayacağı haqqında öhdəliyi də nəzərdə tutulur. Məlumat mülkiyyətçisi müqaviləni imzalamaqdan imtina etdikdə ona dövlət sirri təşkil edən məlumatları icazəsiz yaymağa görə qüvvədə olan qanunvericilikdə nəzərdə tutulmuş məsuliyyət barəsində xəbərdarlıq edilir.

11.3. Xarici təşkilatların və əcnəbilərin məlumat üzərində mülkiyyət hüququ məhdudlaşdırıla bilməz, bu şərtlə ki, həmin məlumatı onlar Azərbaycan Respublikasının qanunvericiliyini pozmadan əldə etmiş (hazırlamış) olsunlar.

M a d d ə 12. **Dövlət sirri təşkil edən məlumat daşıyıcılarının rekvizitləri**

12.1. Dövlət sirri təşkil edən məlumat daşıyıcılarına rekvizitlər verilir. Rekvizitlərdə aşağıdakılar göstərilir:

12.1.1.müvafiq dövlət hakimiyyəti orqanında, müəssisə, idarə və ya təşkilatda qüvvədə olan məxfiləşdirilməli məlumatlar siyahısının *və ya dövlət sirrinə aid edilən məlumatların siyahısının*siyahısının müvafiq bəndinə istinadla, daşıyıcıdakı məlumatların məxfilik dərəcəsi; [7]

12.1.2.daşıyıcını məxfiləşdirən dövlət hakimiyyəti orqanı, müəssisə, idarə, təşkilatın adı;

12.1.3.qeydiyyat nömrəsi;

12.1.4.məlumatların məxfiliyinin açılması tarixi və ya şərti, yaxud buna səbəb ola biləcək hadisə.

12.2.Bu rekvizitləri məlumat daşıyıcısında əks etdirmək mümkün olmadıqda onlar daşıyıcıya qoşulan sənədlərdə göstərilir.

12.3.Daşıyıcı məxfilik dərəcəsi müxtəlif olan tərkib hissələrindən ibarətdirsə, onların hər birinə müvafiq məxfilik qrifi, bütövlükdə daşıyıcıya isə bu daşıyıcıda ən yüksək məxfilik dərəcəsi olan tərkib hissəsinin məxfilik qrifi verilir.

12.4.Bu Qanunun 12.1-ci maddəsində göstərilən rekvizitlərdən başqa, daşıyıcıya və (və ya) ona qoşulan sənədlərə vəzifəli şəxslərin onunla tanış olmaq səlahiyyəti barədə əlavə qeydləri də qoyula bilər. Belə qeydlərin növləri və qoyulması bu Qanunun 26-cı maddəsində nəzərdə tutulmuş vəzifəli şəxslərin və vətəndaşların dövlət sirri təşkil edən məlumatlarla tanış olmağa buraxılması qaydası ilə müəyyənləşdirilir.

M a d d ə 13. **Məlumatların məxfiliyinin açılması qaydası**

13.1.Məlumatların və məlumat daşıyıcılarının məxfiliyinin açılması dövlət sirri təşkil edən məlumatların yayılmasına və onların daşıyıcıları ilə tanış olmağa buraxılmağa bu Qanunla nəzərdə tutulmuş qaydada qoyulmuş məhdudiyyətlərin götürülməsidir.

13.2.Məlumatların məxfiliyinin açılması üçün əsaslar aşağıdakılardır:

13.2.1.məxfilik müddətinin bitməsi;

13.2.2.Azərbaycan Respublikasında dövlət sirri təşkil edən məlumatların açıq mübadiləsi sahəsində Azərbaycan Respublikasının beynəlxalq öhdəliklər götürməsi;

13.2.3.obyektiv halların dəyişməsi nəticəsində dövlət sirri təşkil edən məlumatların mühafizəsinin məqsədəuyğunluğunun aradan qalxması.

13.3.*Məlumatın məxfilik müddəti onun məxfiləşdirildiyi gündən hesablanır. Bu müddət məxfi məlumatlar üçün 10 ildən, tam məxfi məlumatlar üçün 20 ildən, xüsusi əhəmiyyətli məlumatlar üçün 30 ildən, məxfilik dərəcəsindən asılı olmayaraq şəxsin kəşfiyyat, əks-kəşfiyyat, əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanların əməkdaşı olmasını və ya bu orqanlarla konfidensial əsaslarla əməkdaşlıq edən, yaxud əməkdaşlıq etmiş şəxslərin şəxsiyyətini müəyyən etməyə imkan verən məlumatlar*

*üçün 75 ildən çox olmamalıdır. Həmin müddətlər müvafiq icra hakimiyyəti orqanının rəyi ilə uzadıla bilər.*[8]

13.4.Dövlət sirrinə aid edilən məlumatlar barəsində sərəncam vermək səlahiyyətinə malik olan dövlət hakimiyyəti orqanları vaxtaşırı, lakin 5 ildə azı bir dəfə dövlət hakimiyyəti orqanlarında, müəssisə, idarə və təşkilatlarda qüvvədə olan məxfiləşdirilməli məlumatların siyahılarına yenidən baxaraq məlumatların məxfiləşdirilməsinin əsaslılığını və onların əvvəllər müəyyənləşdirilmiş məxfilik dərəcəsinə uyğunluğunu yoxlamalıdırlar.

13.5.Dövlət hakimiyyəti orqanlarında, müəssisə, idarə və təşkilatlarda qüvvədə olan məxfiləşdirilməli məlumatlar siyahısına dəyişiklik etmək hüququ həmin siyahıları təsdiq edən dövlət hakimiyyəti orqanlarının rəhbərlərinə verilir. Göstərilən rəhbərlərin məxfiləşdirilməli məlumatlar siyahısı üzrə qəbul etdikləri qərarlar dövlət sirrinə aid edilən məlumatlar siyahısına dəyişiklik edilməsi ilə bağlı olduqda belə qərarlar müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmalıdır. Həmin orqanın bu qərarların icrasını dayandırmaq və onlara etiraz etmək hüququ vardır.

M a d d ə 14. **Dövlət sirri təşkil edən məlumat daşıyıcılarının məxfiliyinin açılması qaydası**

14.1. *Dövlət sirri təşkil edən məlumatların məxfilik müddətinin uzadıldığı hal istisna olmaqla, dövlət sirri təşkil edən məlumat daşıyıcılarının məxfiliyi məlumat məxfiləşdirildiyi zaman müəyyən edilmiş müddətdən gec olmayaraq götürülməlidir.*[9]

14.2. Müvafiq dövlət hakimiyyəti orqanında, müəssisə, idarə və təşkilatlarda məlumat daşıyıcıları məxfiləşdirilərkən əsas götürülmüş siyahının müddəaları dəyişərsə, daşıyıcıların məxfiliyi həmin müddət bitənədək açılmalıdır.

14.3. Müstəsna hallarda dövlət sirri təşkil edən məlumat daşıyıcılarının əvvəl müəyyənləşdirilmiş məxfilik müddətini uzatmaq hüququ dövlət sirrinə aid edilən məlumatlar barəsində sərəncam vermək səlahiyyətinə malik olan müvafiq dövlət hakimiyyəti orqanlarının rəhbərlərinə verilir. Belə qərarları həmin rəhbərlər müəyyənləşdirilmiş qaydada təyin etdikləri ekspert komissiyasının rəyi əsasında qəbul edirlər.

14.4. Dövlət hakimiyyəti orqanlarının, müəssisə, idarə və təşkilatların rəhbərlərinə onların tabeliyində olan vəzifəli şəxslərin əsassız məxfiləşdirdikləri məlumatların məxfiliyini açmaq səlahiyyəti verilir.

14.5. Azərbaycan Respublikası dövlət arxivlərinin rəhbərlərinə fond yaradıcı təşkilat və ya onun hüquqi varisi tərəfindən həmin arxivlərin qapalı fondlarında mühafizə edilən dövlət sirri təşkil edən məlumat daşıyıcılarının məxfiliyini açmaq səlahiyyəti verilə bilər. Fondyaradıcı təşkilat ləğv edildikdə və onun hüquqi varisi olmadıqda, dövlət sirri təşkil edən məlumat daşıyıcılarının məxfiliyinin açılması qaydasına dair qərarı müvafiq icra hakimiyyəti orqanı qəbul edir.

M a d d ə 15. **Azərbaycan Respublikası vətəndaşlarının, müəssisə, idarə və təşkilatlarının, dövlət hakimiyyəti orqanlarının məlumatların məxfiliyini açmaq haqqında sorğularının icrası**

15.1. Azərbaycan Respublikasının vətəndaşları, müəssisələri, idarələri, təşkilatları və dövlət hakimiyyəti orqanları məxfiləşdirilmiş məlumatların məxfiliyinin açılması haqqında sorğu ilə dövlət hakimiyyəti orqanlarına, müəssisələrə, idarələrə və təşkilatlara, o cümlədən dövlət arxivlərinə müraciət edə bilərlər.

15.2.Bu Qanunun 15.1-ci maddəsində nəzərdə tutulan sorğunu almış dövlət hakimiyyəti orqanı, müəssisə, idarə və təşkilat, o cümlədən dövlət arxivi sorğuya üç ay ərzində baxıb mahiyyəti üzrə əsaslandırılmış cavab verməlidir.

15.3.Əgər dövlət hakimiyyəti orqanı, müəssisə, idarə və təşkilat, o cümlədən dövlət arxivi sorğulanmış məlumatın məxfiliyini açmaq səlahiyyətinə malik deyilsə, onda sorğunu vermiş vətəndaşa, müəssisəyə, idarəyə, təşkilata, dövlət hakimiyyəti orqanına bildiriş verməklə sorğu daxil olduğu gündən ən geci bir ay müddətində bu cür səlahiyyəti olan dövlət orqanına, yaxud müvafiq icra hakimiyyəti orqanına göndərilir.

15.4. Vəzifəli şəxsin sorğuya mahiyyəti üzrə baxmaqdan boyun qaçırması qüvvədə olan qanunvericiliyə müvafiq olaraq inzibati və ya intizam məsuliyyətinə səbəb olur.

III fəsil

## DÖVLƏT SİRRİ TƏŞKİL EDƏN MƏLUMATLAR BARƏSİNDƏ SƏRƏNCAM VERİLMƏSİ

M a d d ə 16. **Dövlət hakimiyyəti orqanının, müəssisə, idarə və təşkilatların dövlət sirri təşkil edən məlumatları bir-birinə verməsi**

16.1. Tabelik münasibətlərində olmayan və birgə işlər aparmayan dövlət hakimiyyəti orqanları, müəssisə, idarə və təşkilatlar dövlət sirri təşkil edən məlumatları bir-birinə bu Qanunun 9-cu maddəsinə uyğun olaraq sərəncamında müvafiq məlumatlar olan dövlət hakimiyyəti orqanının icazəsi ilə verirlər.

16.2. Dövlət sirri təşkil edən məlumatları sorğulayan dövlət hakimiyyəti orqanları, müəssisə, idarə və təşkilatlar onların mühafizəsini təmin edən şəraiti yaratmağa borcludurlar. Onların rəhbərləri dövlət sirri təşkil edən məlumatlarla tanış olmağa buraxılması üzrə müəyyənləşdirilmiş qaydalara əməl olunmamasına görə fərdi məsuliyyət daşıyırlar.

16.3. Dövlət sirri təşkil edən məlumatların müəssisə, idarə və təşkilatlara verilməsinin məcburi şərti onların bu Qanunun 27-ci maddəsində nəzərdə tutulmuş tələbləri yerinə yetirməsidir.

M a d d ə 17. **Dövlət sirri təşkil edən məlumatların birgə və başqa işlərin görülməsi ilə əlaqədar verilməsi**

17.1.Dövlət sirri təşkil edən məlumatları birgə və başqa işlərin görülməsi ilə əlaqədar müəssisə, idarə, təşkilatlara və ya vətəndaşlara bu işlərin sifarişçisi, bu Qanunun 9-cu maddəsinə uyğun olaraq sərəncamında müvafiq məlumatlar olan dövlət hakimiyyəti orqanının icazəsi ilə, yalnız həmin işlərin görülməsi üçün zəruri olan həcmdə verir.

17.2.Dövlət sirri təşkil edən məlumatları verənədək sifarişçi müəssisə, idarə və ya təşkilatda dövlət sirri təşkil edən məlumatlardan istifadə edilməklə bağlı işlərin icrasına buraxılması üçün icazənin, vətəndaşlarda isə müvafiq buraxılışın olduğunu yəqin etməlidir.

17.3.Müəssisə, idarə və ya təşkilatlar birgə və başqa işlər gördükdə (dövlət sifarişləri aldıqda) və bununla əlaqədar dövlət sirri təşkil edən məlumatlardan istifadə zərurəti yarandıqda, onlar dövlət müəssisələrinin, idarələrinin və ya təşkilatlarının dövlət sirrini mühafizə üzrə struktur bölmələrinin xidmətlərindən istifadə barəsində həmin müəssisə, idarə və ya təşkilatlar ilə müqavilələr bağlaya bilərlər. Razılığa gələn hər iki tərəfin dövlət sirri təşkil edən məlumatlardan istifadə edilməklə bağlı işlərin icrasına buraxılması üçün icazələrinin nömrəsi və etibarlılıq müddəti müqavilədə göstərilməlidir.

17.4. Birgə və başqa işlərin görülməsinə dair qanunla müəyyənləşdirilmiş qaydada bağlanan müqavilədə tərəflərin, həm işlərin görülməsi prosesində, həm də işlər başa çatdıqdan sonra dövlət sirri təşkil edən məlumatların mühafizəsini təmin etmək barəsində qarşılıqlı öhdəlikləri, habelə dövlət sirri təşkil edən məlumatların mühafizəsi ilə bağlı işlərin (xidmətlərin) maliyyələşdirilməsi şərtləri nəzərdə tutulur.

17.5. Birgə və başqa işlər görülərkən dövlət sirrinin etibarlı mühafizəsinə nəzarətin təşkili tərəflərin bağladığı müqavilənin müddəalarına uyğun olaraq bu işlərin sifarişçisinə həvalə edilir.

17.6. Birgə və başqa işlərin gedişində icraçı dövlət sirrinin mühafizəsi ilə əlaqədar götürdüyü öhdəlikləri pozduqda, sifarişçi sifarişin yerinə yetirilməsini pozuntular aradan qaldırılanadək dayandıra bilər.

17.7. Təkrar pozuntu törədildikdə isə, sifarişçi dövlət sirri təşkil edən məlumatlardan istifadə etməklə işlər görülməsi üçün sifarişin və dövlət sirri təşkil edən məlumatlardan istifadə edilməsi ilə bağlı işlərin icrasına buraxılması üçün icazənin ləğv edilməsi və təqsirli şəxslərin məsuliyyətə cəlb olunması məsələsini qaldıra bilər. Bu halda icraçının sifarişçi qismində dövlətə vurduğu maddi zərərin əvəzi qüvvədə olan qanunvericiliyə müvafiq surətdə ödənilməlidir.

M a d d ə 18. **Dövlət sirri təşkil edən məlumatların digər dövlətlərə və beynəlxalq təşkilatlara verilməsi** [10]

18.1.Dövlət sirri təşkil edən məlumatların digər dövlətlərə və beynəlxalq təşkilatlara verilməsi haqqında qərarı müvafiq icra hakimiyyəti orqanı belə məlumatların verilməsinin mümkünlüyü haqqında müvafiq icra hakimiyyəti orqanının ekspert rəyi olduqda qəbul edir.

18.2.Dövlət sirri təşkil edən məlumatların digər dövlətlərə və beynəlxalq təşkilatlara verilməsi qaydasını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir. Qəbul edən tərəfin ona verilən məlumatların mühafizəsi üzrə öhdəlikləri onunla bağlanmış beynəlxalq müqavilədə nəzərdə tutulur.

M a d d ə 19. **Hüquq münasibətləri subyektlərinin funksiyaları dəyişdikdə dövlət sirri təşkil edən məlumatların mühafizəsi**

19.0. Dövlət sirri təşkil edən məlumatlara malik olan dövlət hakimiyyəti orqanları, müəssisə, idarə və təşkilatlar ləğv edildikdə, təşkilati-hüquqi forması və mülkiyyət növü dəyişdikdə və ya dövlət sirri təşkil edən məlumatlardan istifadə etməklə görülən işlərə son qoyulduqda malik olduqları məlumatların və onların daşıyıcılarının mühafizəsini təmin etmək üçün tədbirlər görülməlidir. Bu zaman dövlət sirri təşkil edən məlumat daşıyıcıları müəyyənləşdirilmiş qaydada məhv edilir, arxivə və ya aşağıdakılardan birinə verilir:

19.0.1. dövlət sirri təşkil edən məlumatlara malik olan dövlət hakimiyyəti orqanının, müəssisə, idarə və təşkilatın hüquqi varisinin göstərilən məlumatlardan istifadə etməklə iş görmək icazəsi varsa, hüquqi varisə;

19.0.2. bu Qanunun 9-cu maddəsinə uyğun olaraq sərəncamında müvafiq məlumatlar olan dövlət hakimiyyəti orqanına;

19.0.3. müvafiq icra hakimiyyəti orqanının göstərişi ilə başqa dövlət hakimiyyəti orqanına, müəssisə, idarə və ya təşkilata.

IV fəsil

## DÖVLƏT SİRRİNİN MÜHAFİZƏSİ

M a d d ə 20. **Dövlət sirrini mühafizə orqanları**

20.1. Dövlət sirrini mühafizə orqanlarına aşağıdakılar aiddir:

20.1.1. müvafiq mərkəzi icra hakimiyyəti orqanları;

20.1.2. dövlət hakimiyyəti orqanları, müəssisə, idarə, təşkilatlar və onların dövlət sirrinin mühafizəsi üzrə struktur bölmələri.

20.2. Bu Qanunun 20.1-ci maddəsində nəzərdə tutulan orqanlar və onların yerlərdəki orqanları dövlət sirrinin mühafizəsini Azərbaycan Respublikasının qanunvericiliyi ilə onlara həvalə olunmuş funksiyalara müvafiq surətdə təşkil və təmin edirlər.

20.3. Dövlət hakimiyyəti orqanlarında, müəssisə, idarə və təşkilatlarda dövlət sirri təşkil edən məlumatların mühafizəsinin təşkili üçün məsuliyyət onların rəhbərlərinin üzərinə qoyulur.

20.4. Dövlət sirri təşkil edən məlumatlardan istifadə etməklə görülən işlərin həcmindən asılı olaraq dövlət hakimiyyəti orqanlarının, müəssisə, idarə və təşkilatların rəhbərləri müvafiq icra hakimiyyəti orqanının təsdiq etdiyi normativ hüquqi sənədlərə uyğun olaraq dövlət sirrinin mühafizəsi üzrə struktur bölmələri yaradır və görülən işlərin xüsusiyyətlərini nəzərə almaqla onların funksiyalarını müəyyənləşdirirlər.

20.5. Dövlət sirrinin mühafizəsi dövlət hakimiyyəti orqanlarının, müəssisə, idarə və təşkilatların əsas fəaliyyət istiqamətlərindən biridir.

M a d d ə 21. **Vəzifəli şəxslərin və vətəndaşların dövlət sirri ilə işləməyə buraxılması**

21.1. Vəzifəli şəxslərin və vətəndaşların dövlət sirri ilə işləməyə buraxılması könüllülük qaydasında həyata keçirilir.

21.2. Dövlət sirri ilə işləməyə, bir qayda olaraq, Azərbaycan Respublikasının vətəndaşları buraxılırlar.

21.3. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin dövlət sirri ilə işləməyə buraxılması müvafiq icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi qaydada həyata keçirilir.

21.4. Vəzifəli şəxsin və vətəndaşın dövlət sirri ilə işləməyə buraxılması aşağıdakıları nəzərdə tutur:

21.4.1. ona etibar ediləcək dövlət sirri təşkil edən məlumatları yaymayacağı barədə dövlət qarşısında öhdəlik götürməsini; **[11]**

21.4.2. dövlət sirri haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət nəzərdə tutan Azərbaycan Respublikasının qanunvericiliyi ilə tanış olmasını;

21.4.3. bu Qanunun 25-ci maddəsində nəzərdə tutulan qismən və müvəqqəti məhdudiyyətlərə ~~rəsmi~~ yazılı razılıq verilməsini; **[12]**

onun barəsində səlahiyyətli orqanlar tərəfindən yoxlama tədbirlərinin keçirilməsinə yazılı razılıq verməsini;

21.4.4. onun barəsində səlahiyyətli orqanlar tərəfindən yoxlama tədbirlərinin keçirilməsinə yazılı razılıq verməsini;

21.4.5. dövlət hakimiyyəti orqanının, müəssisə, idarə və təşkilatın rəhbəri tərəfindən dövlət sirri ilə işləməyə buraxılma haqqında qərar qəbul edilməsini. **[13]**

21.5. Yoxlama tədbirlərinin həcmi dövlət sirri ilə işləməyə buraxılan şəxsin işləməyə buraxılacağı məlumatların məxfilik dərəcəsindən asılıdır. Yoxlama tədbirləri Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq surətdə həyata keçirilir. Yoxlama tədbirlərinin keçirilməsində məqsəd bu Qanunun 23.1-ci maddəsində nəzərdə tutulan əsasların olub-olmamasının

müəyyənləşdirilməsidir. [14]

21.5-1. Vəzifəli şəxsin və vətəndaşın xüsusi əhəmiyyətli, tam məxfi və məxfi məlumatlarla işləməyə buraxılması ilə bağlı yoxlama tədbirləri prokurorluq orqanlarında Azərbaycan Respublikasının Baş Prokurorluğu, digər dövlət hakimiyyəti orqanları, idarə, müəssisə və təşkilatlarda müvafiq icra hakimiyyəti orqanı tərəfindən keçirilir. Yoxlama tədbirlərinin həcmi və keçirilməsi qaydası yoxlama tədbirlərini keçirən orqanlar tərəfindən hazırlanır və müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmaqla təsdiq edilir.[15]

21.6. Vəzifəli şəxsin və vətəndaşın ona etibar ediləcək dövlət sirri təşkil edən məlumatları yaymayacağı barədə dövlət qarşısında götürdüyü öhdəliyi onunla işəgötürən arasında bağlanan əmək müqaviləsində, işə (xidmətə) qəbul əmək müqaviləsi ilə həyata keçirilmədikdə isə iltizamnamədə əks olunur. Dövlət sirri ilə işləməyə buraxılışı olmayan şəxsin dövlət sirrindən istifadə ilə bağlı vəzifəyə təyin edilməsinə yol verilmir. [16]

21.7. Vəzifəli şəxslərin və vətəndaşların dövlət sirri ilə işləməyə buraxılmasının dövlət sirri təşkil edən məlumatların məxfilik dərəcələrinə uyğun üç forması müəyyən edilir: xüsusi əhəmiyyətli, tam məxfi və məxfi məlumatlarla işləməyə buraxılma.

21.8. Vəzifəli şəxslərin və vətəndaşların məxfilik dərəcəsi daha yüksək olan məlumatlarla işləməyə buraxılışının olması, onların məxfilik dərəcəsi daha aşağı olan məlumatlarla işləməyə buraxılmasına əsas verir.

21.9. Vəzifəli şəxslərin və vətəndaşların dövlət sirri ilə işləməyə buraxılması~~və işləməyə buraxılmasının yenidən rəsmiləşdirilməsi~~ qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.[17]

21.10. Hərbi və fövqəladə vəziyyət şəraitində vəzifəli şəxslərin və vətəndaşların dövlət sirri ilə işləməyə buraxılması qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən dəyişdirilə bilər. [18]

M a d d ə 22. **Dövlət sirri ilə işləməyə buraxılmanın xüsusi qaydaları**

22.1. Azərbaycan Respublikası Milli Məclisinin deputatları, Azərbaycan Respublikası Hesablama Palatasının üzvləri, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinə əsasən vəzifəyə təyin edilmiş şəxslər, öz vəzifələrinin icrası zamanı hakimlər, habelə dövlət sirri təşkil edən məlumatlarla bağlı cinayət işləri üzrə cinayət mühakimə icraatında müdafiəçi qismində çıxış edən vəkillər dövlət sirri ilə işləməyə bu Qanunla nəzərdə tutulmuş yoxlama tədbirləri keçirilmədən buraxılırlar. [19]

22.2. Bu Qanunun 22.1-ci maddəsində göstərilən şəxslər, qanunvericilikdə başqa hal nəzərdə tutulmayıbsa, dövlət sirrinin yayılmasına görə məsuliyyətə ümumi əsaslarla cəlb edilirlər.

M a d d ə 23. **Vəzifəli şəxsi və ya vətəndaşı dövlət sirri ilə işləməyə buraxmaqdan imtina edilməsi üçün əsaslar**[20]

23.1. Vəzifəli şəxsi və ya vətəndaşı dövlət sirri ilə işləməyə buraxmaqdan imtina edilməsi üçün əsaslar aşağıdakılardır:

23.1.1. məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilməsi;

23.1.2. Azərbaycan Respublikasının Konstitusiya quruluşunun əsasları və təhlükəsizliyi əleyhinə olan cinayətlərə, eləcə də digər xüsusilə ağır və ağır cinayətlərə görə məhkum edilməsi (məhkumluğun ödənilməsi və ya götürülməsindən asılı olmayaraq);

23.1.3. bu Qanunun 23.1.2-ci maddəsində göstərilən cinayətlərə görə Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə uyğun olaraq tutulması və ya barəsində hər hansı qətimkan tədbirinin seçilməsi (azad edilənədək, qətimkan tədbirinin müddəti bitənədək və ya qətimkan tədbiri ləğv edilənədək);

23.1.4. müvafiq icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi siyahıya uyğun olaraq, dövlət sirri təşkil edən məlumatlarla işləməyi istisna edən xəstəliklərinin olması;

23.1.5. xarici ölkədə daimi yaşaması;

23.1.6. Azərbaycan Respublikasının vətəndaşlığından çıxmaq barədə müvafiq icra hakimiyyəti orqanına müraciət etməsi*və ya barəsində "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikası Qanununun 18-ci maddəsinin müddəalarının tətbiqi ilə bağlı icraata başlanılması*;[21]

23.1.7. yoxlama tədbirləri nəticəsində dövlət sirri ilə işləməyə buraxılacaq şəxsin Azərbaycan Respublikasının təhlükəsizliyi üçün təhlükə törədən hərəkətlərinin aşkara çıxması;

23.1.8. yoxlama tədbirlərindən boyun qaçırması və ya qəsdən yalan anket məlumatları verməsi.

23.2. Vəzifəli şəxsi və ya vətəndaşı dövlət sirri ilə işləməyə buraxmaqdan imtina edilməsi barədə qərarı dövlət hakimiyyəti orqanının, müəssisə, idarə və ya təşkilatın rəhbəri yoxlama tədbirlərinin nəticələrini nəzərə almaqla, fərdi qaydada qəbul edir. Vəzifəli şəxsin və ya vətəndaşın həmin qərardan şikayət vermək hüququ vardır.

23.3. Dövlət sirri ilə işləməyə buraxmaqdan imtina edilməsi üçün əsas verən məlumatların aid olduğu hər hansı vəzifəli şəxs və ya vətəndaşların mərkəzləşdirilmiş uçotunun aparılması və məlumat bazasının yaradılması müvafiq icra hakimiyyəti orqanları tərəfindən təşkil edilir.

*23.4. Bu Qanunun 23.1-ci maddəsində nəzərdə tutulmuş əsasların aradan qalxdığı və ya dövlət hakimiyyəti orqanının, müəssisə, idarə və ya təşkilatın rəhbəri yoxlamanın nəticəsi ilə razı olmadığı hallarda onun təşəbbüsü ilə təkrar yoxlama keçirilə bilər.*[22]

M a d d ə 24. **Vəzifəli şəxsin və ya vətəndaşın dövlət sirri ilə işləməyə buraxılmasına xitam verilməsi şərtləri**

24.1. Vəzifəli şəxsin və ya vətəndaşın dövlət sirri ilə işləməyə buraxılmasına dövlət hakimiyyəti orqanı, müəssisə, idarə və ya təşkilat rəhbərinin qərarı ilə aşağıdakı hallarda xitam verilir:

24.1.1. təşkilati və (və ya) ştat tədbirləri ilə əlaqədar onunla bağlanmış əmək müqaviləsinə xitam verildikdə;

24.1.2. əmək müqaviləsinə əsasən dövlət sirrinin mühafizəsi üzrə götürdüyü öhdəlikləri bir dəfə pozduqda;

24.1.3. bu Qanunun 23.1-ci maddəsinə uyğun olaraq vəzifəli şəxsi və ya vətəndaşı dövlət sirri ilə işləməyə buraxmaqdan imtina üçün əsas verən hallar yarandıqda.

24.2. Dövlət sirri ilə işləməyə buraxılmasına xitam verilməsi vəzifəli şəxsi və ya vətəndaşı dövlət sirri təşkil edən məlumatları yaymamaq haqqında götürdüyü öhdəliklərdən azad etmir.

M a d d ə 25. **Dövlət sirri ilə işləməyə buraxılan və ya əvvəllər buraxılmış vəzifəli şəxsin və ya vətəndaşın hüquqlarının məhdudlaşdırılması**

25.0. Dövlət sirri ilə işləməyə buraxılan və ya əvvəllər buraxılmış vəzifəli şəxsin və ya vətəndaşın hüquqları müvəqqəti

məhdudlaşdırıla bilər. Məhdudiyyətlər aşağıdakılara aid ola bilər:

25.0.1. dövlət sirri ilə işləməyə buraxılmış şəxslərin tanış olmağa buraxıldığı məlumatın məxfilik müddəti bitənədək, lakin 5 ildən çox olmamaq şərti ilə, xarici ölkəyə daimi yaşamağa getmək hüququna;

25.0.2. dövlət sirri təşkil edən məlumatları yaymaq və bu cür məlumatları əks etdirən kəşflərdən və ixtiralardan istifadə etmək hüququna;

25.0.3. dövlət sirri ilə işləməyə buraxılmasının rəsmiləşdirilməsi (yenidən rəsmiləşdirilməsi) ilə əlaqədar yoxlama tədbirlərinin keçirildiyi müddətdə şəxsi toxunulmazlıq hüququna.

M a d d ə 26. **Vəzifəli şəxsin və ya vətəndaşın dövlət sirri təşkil edən məlumatlarla tanış olmağa buraxılmasının təşkili**

26.1. Vəzifəli şəxsin və ya vətəndaşın dövlət sirri təşkil edən məlumatlarla tanış olmağa buraxılmasının təşkili müvafiq dövlət hakimiyyəti orqanının, müəssisə, idarə və ya təşkilatın rəhbəri, habelə onların dövlət sirrinin mühafizəsi üzrə struktur bölmələri tərəfindən həyata keçirilir.

26.2. Vəzifəli şəxsin və ya vətəndaşın dövlət sirri təşkil edən məlumatlarla tanış olmağa buraxılması qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

26.3. Dövlət hakimiyyəti orqanlarının, müəssisə, idarə və ya təşkilatların rəhbərləri vəzifəli şəxsin və ya vətəndaşın, yalnız öz vəzifə borcunu yerinə yetirməsi üçün zəruri olan dövlət sirri təşkil edən məlumatlarla və yalnız lazımi həcmdə tanış olması üçün müvafiq şəraitin yaradılmasına görə fərdi məsuliyyət daşıyırlar.

M a d d ə 27. **Müəssisə, idarə və təşkilatların dövlət sirri təşkil edən məlumatlardan istifadə ilə bağlı işlərin icrasına buraxılması**

27.1. Müəssisə, idarə və təşkilatlar müvafiq məxfilik dərəcəsi olan məlumatlarla işləmək üçün müvafiq icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi qaydada icazə aldıqdan sonra dövlət sirri təşkil edən məlumatlardan istifadə edilməsi, informasiyanı mühafizə vasitələrinin yaradılması, habelə dövlət sirrinin mühafizəsi üzrə tədbirlər görülməsi və (və ya) xidmətlər göstərilməsi ilə bağlı işlərin icrasına buraxılırlar.

27.2. Bu işlərin görülməsi üçün icazələr müəssisə, idarə və təşkilatın xüsusi ekspertizasının və onların dövlət sirri təşkil edən məlumatların mühafizəsi üçün məsul rəhbərlərinin dövlət attestasiyasının nəticələri əsasında verilir. Ekspertizanın keçirilməsi və icazənin verilməsi ilə bağlı xərclər həmin müəssisə, idarə və təşkilatların hesabına ödənilir.

27.3. Dövlət sirri təşkil edən məlumatlardan istifadə ilə bağlı işlərin görülməsi üçün müəssisə, idarə və təşkilatlara icazə onların aşağıdakı şərtləri yerinə yetirdiyi hallarda verilir:

27.3.1.dövlət sirri təşkil edən məlumatlardan istifadə ilə bağlı işlərin görülməsi prosesində məlumatların mühafizəsinin təmin olunmasına dair müvafiq icra hakimiyyəti orqanının təsdiq etdiyi normativ hüquqi sənədlərin tələblərini yerinə yetirdikdə;

27.3.2.onların strukturlarında dövlət sirrinin mühafizəsi üzrə struktur bölmələri və məlumatın mühafizə işi üçün xüsusi hazırlanmış, sayı və ixtisas səviyyəsi dövlət sirrinin mühafizəsinin təmin olunmasına kifayət edən əməkdaşları olduqda;

27.3.3.onların sertifikatlaşdırılmış informasiyanı mühafizə vasitələri olduqda.

M a d d ə 28. **İnformasiyanı mühafizə vasitələrinin sertifikatlaşdırılması**

28.1. İnformasiyanı mühafizə vasitələrinə onların müvafiq məxfilik dərəcəsi olan məlumatların mühafizəsi tələblərinə uyğunluğunu təsdiq edən sertifikat verilməlidir.

28.2. İnformasiyanı mühafizə vasitələrinin sertifikatlaşdırılması müvafiq icra hakimiyyəti orqanı tərəfindən təşkil edilir.

## V fəsil

## DÖVLƏT SİRRİNİN MÜHAFİZƏSİ TƏDBİRLƏRİNİN MALİYYƏLƏŞDİRİLMƏSİ

M a d d ə 29. **Dövlət sirrinin mühafizəsi tədbirlərinin maliyyələşdirilməsi**

29.1. Dövlət hakimiyyəti orqanlarının, büdcə müəssisələrinin, idarələrinin, təşkilatlarının və onların struktur bölmələrinin dövlət sirrinin mühafizəsi üzrə fəaliyyəti müvafiq büdcələrin vəsaiti hesabına, qalan müəssisə, idarə və təşkilatların fəaliyyəti isə onların dövlət sirri təşkil edən məlumatlardan istifadə etməklə işləri görərkən əsas fəaliyyətdən götürdükləri vəsait hesabına maliyyələşdirilir.

29.2. Dövlət sirrinin mühafizəsinə dair dövlət proqramlarının maliyyələşdirilməsi üçün vəsait Azərbaycan Respublikasının dövlət büdcəsində nəzərdə tutulur.

29.3. Dövlət sirrinin mühafizəsi tədbirlərinin görülməsi üçün ayrılan vəsaitin xərclənməsinə nəzarəti dövlət hakimiyyəti orqanlarının, müəssisə, idarə və təşkilatların rəhbərləri, işlərin sifarişçiləri, habelə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının xüsusi səlahiyyət verilmiş vəzifəli şəxsləri həyata keçirirlər.

## VI fəsil

## DÖVLƏT SİRRİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI QANUNVERİCİLİYİNİN POZULMASINA GÖRƏ MƏSULİYYƏT

Maddə 30. **Dövlət sirri haqqında Azərbaycan Respublikası qanunvericiliyinin pozulmasına görə məsuliyyət və mübahisələrə baxılma qaydası**

30.1. Dövlət sirri haqqında Azərbaycan Respublikasının qanunvericiliyini pozan hüquqi şəxslər, vəzifəli şəxslər və vətəndaşlar qüvvədə olan qanunvericiliyə müvafiq olaraq məsuliyyət daşıyırlar.[23]

30.2. Müvafiq dövlət hakimiyyəti orqanları və onların vəzifəli şəxsləri məlumatların qeyri-qanuni yayılması üzrə qərar qəbul edərkən qeyri-qanuni yayılmış məlumatın dövlət sirri təşkil etməsi haqqında ekspert rəyinə əsaslanırlar. Ekspert rəyinin hazırlanması və təsdiqi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

30.3. Dövlət sirri təşkil edən məlumatların qeyri-qanuni yayılması bütövlükdə Azərbaycan Respublikası və ya mərkəzi icra hakimiyyəti orqanı üzrə dövlətin təhlükəsizliyinə ziyan vurulmaqla nəticələndiyi hallarda məlumatların yayılması

faktı üzrə materiallara müvafiq icra hakimiyyəti orqanı tərəfindən baxılır və rəy verilir.

30.4. Vətəndaşların, dövlət hakimiyyəti orqanlarının, yerli özünüidarə orqanlarının, müəssisə, idarə və təşkilatların bu Qanunla bağlı qanuni maraqlarının və hüquqlarının qorunması, mübahisələrə baxılması məhkəmə qaydasında və ya qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirilir.

VII fəsil

## DÖVLƏT SİRRİNİN MÜHAFİZƏSİNİN TƏMİN OLUNMASINA NƏZARƏT

### M a d d ə 31. Dövlət sirrinin mühafizəsinin təmin olunmasına nəzarət

31.1. Dövlət sirrinin mühafizəsinin təmin olunmasına nəzarəti Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada səlahiyyətləri daxilində müvafiq icra hakimiyyəti orqanı həyata keçirir.

31.2. Dövlət sirrinin yayılmasının qarşısının alınması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada həyata keçirilir.

### M a d d ə 32. Dövlət sirrinin mühafizəsinin təmin olunmasına idarələrarası və idarə nəzarəti

32.1. Dövlət hakimiyyəti orqanlarında, yerli özünüidarə orqanlarında, müəssisə, idarə və təşkilatlarda dövlət sirrinin mühafizəsinin təmin olunmasına idarələrarası nəzarəti Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı həyata keçirir.

32.2. Bu Qanunla müəyyən olunmuş qaydada dövlət sirrinə aid edilən məlumatlar barəsində sərəncam vermək səlahiyyətinə malik dövlət hakimiyyəti orqanları tabeliklərində olan müəssisə, idarə və təşkilatlarda dövlət sirrinin mühafizəsinin təmin olunmasına idarə nəzarətini həyata keçirir.

32.3. Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanlarının aparatlarında və Azərbaycan Respublikası Milli Məclisinin Aparatında dövlət sirrinin mühafizəsinin təmin olunmasına nəzarət onların rəhbərləri tərəfindən təşkil edilir.

32.4. Məhkəmə və prokurorluq orqanlarında, *habelə müvafiq icra hakimiyyəti orqanında* dövlət sirrinin mühafizəsinin təmin olunmasına nəzarət bu orqanların rəhbərləri tərəfindən təşkil edilir.[24]

32.5. İdarələrarası nəzarətin həyata keçirilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 7 sentyabr 2004-cü il
733-IIQ

### İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 23 dekabr 2005-ci il tarixli **33-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 2, maddə 65**)
2. 10 oktyabr 2006-cı il tarixli **157-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 11, maddə 925**)
3. 13 iyun 2008-ci il tarixli **649-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 27 avqust 2008-ci il, 190, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 8, maddə 699**)
4. 30 aprel 2013-cü il tarixli **642-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 13 iyun 2013-cü il, 127; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 06, maddə 596**)
5. 20 iyun 2014-cü il tarixli **984-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 10 iyul 2014-cü il, 145; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 07, maddə 762**)
6. 03 aprel 2015-ci il tarixli **1245-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 06 may 2015-ci il, 96, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 5, maddə 492**)
7. 12 iyun 2018-ci il tarixli **1179-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 14 iyul 2018-ci il, 154 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 7, I kitab maddə 1401**)
8. 30 oktyabr 2018-ci il tarixli **1312-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 25 noyabr 2018-ci il, 266 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 11, maddə 2222**)
9. 15 aprel 2022-ci il tarixli **511-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 5 may 2022-ci il, 92 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 5, maddə 430**)

### QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 10 oktyabr 2006-cı il tarixli **157-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 11, maddə 925**) ilə 4.3.3-cü maddədə "**dövlətlərə**" sözü "**dövlətlərə və beynəlxalq təşkilatlara**" sözləri ilə əvəz edilmişdir.

[2] 10 oktyabr 2006-cı il tarixli **157-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 11, maddə 925**) ilə 4.3.4-cü maddə çıxarılmışdır, 4.3.5-ci maddə 4.3.4-cü maddə hesab edilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~4.3.4. dövlət sirri təşkil edən məlumatlarla işləməyə buraxılmış şəxslərin və dövlət sirrinin mühafizəsi üzrə struktur bölmələrin əməkdaşlarının əmək haqqına əlavələrin verilmə qaydasını və həcmini müəyyən edir;~~

[3] 10 oktyabr 2006-cı il tarixli **157-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 11, maddə 925**) ilə 4.4.4-cü maddədən "əməkhaqqına əlavələrin verilməsi və vətəndaşların" sözləri çıxarılmışdır.

[4] 15 aprel 2022-ci il tarixli **511-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 5 may 2022-ci il, 92 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 5, maddə 430**) ilə 5.2.1-ci maddədə "**material**" sözü **"və səfərbərlik**" sözləri ilə əvəz edilmişdir.

[5] 12 iyun 2018-ci il tarixli **1179-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 14 iyul 2018-ci il, 154 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 7, I kitab maddə 1401**) ilə 10.1-ci maddənin birinci cümləsinə "**siyahısına**" sözündən sonra "**və ya dövlət sirrinə aid edilən məlumatların siyahısına**" sözləri əlavə edilmişdir.

[6] 12 iyun 2018-ci il tarixli **1179-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 14 iyul 2018-ci il, 154 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 7, I kitab maddə 1401**) ilə yeni məzmunda 10.4-cü maddə əlavə edilmişdir.

[7] 12 iyun 2018-ci il tarixli **1179-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 14 iyul 2018-ci il, 154 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 7, I kitab maddə 1401**) ilə 12.1.1-ci maddəyə "**siyahısının**" sözündən sonra "**və ya dövlət sirrinə aid edilən məlumatların siyahısının**" sözləri əlavə edilmişdir.

[8] 12 iyun 2018-ci il tarixli **1179-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 14 iyul 2018-ci il, 154 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 7, I kitab maddə 1401**) ilə 13.3-cü maddə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:
~~13.3. Dövlət sirri təşkil edən məlumatların məxfilik müddəti 30 ildən artıq olmamalıdır. Bu müddət müvafiq icra hakimiyyəti orqanının rəyi ilə uzadıla bilər.~~
-

[9] 12 iyun 2018-ci il tarixli **1179-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 14 iyul 2018-ci il, 154 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 7, I kitab maddə 1401**) ilə 14.1-ci maddə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:
~~14.1 Dövlət sirri təşkil edən məlumat daşıyıcılarının məxfiliyi onların məxfiləşdirildiyi zaman müəyyənləşdirilmiş müddətdə (bu Qanunun 13-cü maddəsində göstərilən hallar istisna olmaqla) götürülməlidir.~~
-

[10] 23 dekabr 2005-ci il tarixli **33-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 2, maddə 65**) ilə 18-ci maddəsinin adında, 18.1-ci və 18.2-ci maddələrində "**dövlətlərə**" sözündən sonra "**və beynəlxalq təşkilatlara**" sözləri əlavə edilmişdir.

[11] 20 iyun 2014-cü il tarixli **984-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 10 iyul 2014-cü il, 145; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 07, maddə 762**) ilə 21.4.1-ci maddədə "**edilmiş**" və "**məlumatların yayılmaması**" sözləri müvafiq olaraq "**ediləcək**" və "**məlumatları yaymayacağı**" sözləri ilə əvəz edilmişdir.

[12] 20 iyun 2014-cü il tarixli **984-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 10 iyul 2014-cü il, 145; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 07, maddə 762**) ilə 21.4.3-cü maddədən "**rəsmi**" sözü çıxarılmışdır.

[13] 10 oktyabr 2006-cı il tarixli **157-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 11, maddə 925**) ilə 21.4.5-ci maddə çıxarılmışdır, 21.4.6-cı maddə 21.4.5-ci maddə hesab edilmişdir.
Əvvəlki redaksiyada deyilirdi:
~~21.4.5. bu Qanunla nəzərdə tutulmuş əmək haqqına əlavələrin və onların verilməsi qaydasının müəyyənləşdirilməsini;~~

[14] 20 iyun 2014-cü il tarixli **984-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 10 iyul 2014-cü il, 145; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 07, maddə 762**) ilə 21.5-ci maddənin birinci cümləsində "**rəsmiləşdirilən**" sözü "**dövlət sirri ilə işləməyə buraxılan**" sözləri ilə əvəz edilmişdir.

[15] 20 iyun 2014-cü il tarixli **984-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 10 iyul 2014-cü il, 145; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 07, maddə 762**) ilə yeni məzmunda 21.5-1-ci maddə əlavə edilmişdir.

[16] 20 iyun 2014-cü il tarixli **984-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 10 iyul 2014-cü il, 145; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 07, maddə 762**) ilə 21.6-cı maddə yeni redaksiyada verilmişdir.
Əvvəlki redaksiyada deyilirdi:
~~21.6. İşəgötürənin və dövlət sirri ilə işləməyə buraxılan şəxsin qarşılıqlı öhdəlikləri əmək müqaviləsində əks olunur. Səlahiyyətli orqanlar müvafiq yoxlamanı başa çatdırmayınca əmək müqaviləsinin bağlanmasına yol verilmir.~~
-

[17] 20 iyun 2014-cü il tarixli **984-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 10 iyul 2014-cü il, 145; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 07, maddə 762**) ilə 21.9-cu maddədən "**və işləməyə buraxılmasının yenidən rəsmiləşdirilməsi**" sözləri çıxarılmışdır.
-

[18] 10 oktyabr 2006-cı il tarixli 157-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 11, maddə 925**) ilə 21.6-cı və 21.7-ci maddələr çıxarılmışdır, 21.8-ci - 21.12-ci maddələr müvafiq olaraq 21.6-cı - 21.10-cu maddələr hesab edilmişdir.
Əvvəlki redaksiyada deyilirdi:

~~21.6. Daimi əsasla dövlət sirri ilə işləməyə buraxılan vəzifəli şəxslər və vətəndaşlar üçün tanış olmağa buraxıldıqları məlumatların məxfilik dərəcəsindən asılı olaraq əmək haqlarına əlavələr müəyyən edilir.~~

~~21.7. Dövlət sirrinin mühafizəsi üzrə struktur bölmələrinin əməkdaşlarına daimi əsasla dövlət sirri ilə işləməyə buraxılmış vəzifəli şəxslər və vətəndaşlar üçün müəyyənləşdirilmiş güzəştlə yanaşı, həmin struktur bölmələrində iş stajına görə əmək haqlarına əlavələr müəyyən edilir.~~

**[19]** 13 iyun 2008-ci il tarixli **649-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 27 avqust 2008-ci il, 190**, **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 8, maddə 699**) ilə 22.1-ci maddəsində **"Azərbaycan Respublikası Milli Məclisinin deputatları,"** sözlərindən sonra **"Azərbaycan Respublikası Hesablama Palatasının üzvləri,"** sözləri əlavə edilmişdir.

[20] 20 iyun 2014-cü il tarixli **984-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 10 iyul 2014-cü il, 145; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 07, maddə 762**) ilə 23-cü maddənin mətni yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~23.1. Vəzifəli şəxsi və ya vətəndaşı dövlət sirri ilə işləməyə buraxmaqdan imtina edilməsi üçün əsaslar aşağıdakılardır:~~

~~23.1.1. məhkəmə tərəfindən onun fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilməsi, Azərbaycan Respublikasının Konstitusiya quruluşunun əsasları və təhlükəsizliyi əleyhinə olan cinayətlərdə, eləcə də digər ağır və xüsusilə ağır cinayətlərdə təqsirləndirilərək istintaqa və ya məhkəməyə cəlb edilməsi, bu cür cinayətlərə görə onun məhkumluğunun olması;~~

~~23.1.2. müvafiq icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi siyahıya uyğun olaraq dövlət sirri təşkil edən məlumatlarla işləməyi istisna edən xəstəliklərinin olması;~~

~~23.1.3. yoxlama tədbirləri nəticəsində dövlət sirri ilə işləməyə buraxılacaq şəxsin Azərbaycan Respublikasının təhlükəsizliyi üçün qorxu törədən hərəkətlərinin aşkara çıxması;~~

~~23.1.4. onun yoxlama tədbirlərindən boyun qaçırması və ya qəsdən yalan anket məlumatları verməsi.~~

~~23.2. Vəzifəli şəxsi və ya vətəndaşı dövlət sirri ilə işləməyə buraxmaqdan imtina edilməsi barədə qərarı dövlət hakimiyyəti orqanının, müəssisə, idarə və ya təşkilatın rəhbəri yoxlama tədbirlərinin nəticələrini nəzərə almaqla fərdi qaydada qəbul edir. Vətəndaşın həmin qərardan şikayət vermək hüququ vardır.~~

[21] 03 aprel 2015-ci il tarixli **1245-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 06 may 2015-ci il, 96, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 5, maddə 492**) ilə 23.1.6-cı maddəsinə "**müraciət etməsi**" sözlərindən sonra "**və ya barəsində "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikası Qanununun 18-ci maddəsinin müddəalarının tətbiqi ilə bağlı icraata başlanılması**" sözləri əlavə edilmişdir.

**[22]** 12 iyun 2018-ci il tarixli **1179-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 14 iyul 2018-ci il, 154 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 7, I kitab maddə 1401**) ilə yeni məzmunda 23.4-cü maddə əlavə edilmişdir.

**[23]** 30 aprel 2013-cü il tarixli **642-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 13 iyun 2013-cü il, 127; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 06, maddə 596**) ilə 30.1-ci maddəsinə "**qanunvericiliyini pozan**" sözlərindən sonra "**hüquqi şəxslər,**" sözləri əlavə edilmişdir.

**[24]** 30 oktyabr 2018-ci il tarixli **1312-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 25 noyabr 2018-ci il, 266 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 11, maddə 2222**) ilə 32.4-cü maddədə "**orqanlarında**" sözündən sonra "**, habelə müvafiq icra hakimiyyəti orqanında**" sözləri əlavə edilmişdir.